Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Özəl sektor iqtisadi tərəqqidə xüsusi pay sahibinə çevrilir...

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

**İnkişaf etmiş bazar iqtisadiyyatı şəraitində sahibkarlıq iqtisadi artımı şərtləndirən əsas katalizatorlardan biri kimi özünü təsdiq edib. Xüsusən də regionlarda iqtisadiyyatın inkişafında sahibkarlar, özəl sektor müstəsna rol oynayır.**

Bunun birinci səbəbi özəl sektorun yeniliklərə tez uyğunlaşmaq qabiliyyəti, bazar tələblərinə adekvat cavab verməsi, sabit rəqabət mühitində uğurla fəaliyyət göstərməsidir. İkincisi, həm kiçik, həm də orta biznes iri müəssisə və korporasiyalarla bərabər səviyyədə yeni iş yerləri yarada bilir. Üçüncüsü, kiçik və orta biznes qabaqcıl texnologiya və innovasiyalara daha çevik uyğunlaşır. Bunlar fonunda təsadüfi deyil ki, Azərbaycanda mikro, kiçik və orta sahibkarlığın inkişafına xüsusi diqqət yetirilir.

### Regonların inkişafında sahibkarların rolu artır

Hazırda ölkəmizdə mikro, kiçik və orta sahibkarlığın regionlarda daha dinamik şəkildə inkişafı qeydə alınır. Elə reginların inkişafında da bu təsərrüfat subyektlərinin xüsusi çəkisinin sürətlə artması müşahidə edilir və bu prosesdə dövlət xüsusi maraqlı tərəf kimi çıxış edir. Bununla ilgili olaraq, dövlət tərəfindən sahibkarlıq subyektlərinə hərətərfli dəstək göstərilir, onların fəaliyyətinə əlverişli zəmin yaradılır.

Qeyd edilənlər, o cümlədən biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatlar fonunda ölkədə sahibkarların sayı sürətlə artır. Sahibkarlığın dəstəklənməsi tədbirləri və dəstək mexanizmləri özəl sektorun daha dinamik inkişafına xidmət edir. Məhz bundan irəli gəlir ki, bu gün özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib, sahibkarlığın iqtisadi artımda və məşğulluqda payı artır. Özü də bunlara paralel olaraq sahibkarların öz sayı da sürətlə çoxalır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, bu ilin yanvarın 1-i vəziyyətinə görə, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 1 milyon 168 mini ötüb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, hesabat dövründə hər dörd fərdi sahibkardan üçü "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", "Ticarət; nəqliyyat vasitələrinin təmiri", "Nəqliyyat və anbar təsərrüfatı" və "Digər sahələrdə xidmətlərin göstərilməsi" sahələri üzrə qeydiyyatdan keçib. Sahibkarlıqla məşğul olmaq niyyətində olan fərdi sahibkarların Bakı ilə yanaşı regionlar üzrə də xüsusi çəkisi yüksəkdir. Belə ki, sahibkarlıqıa məşğul olanların pay nisbəti Bakıda (27,9 faiz), Lənkəran-Astara (10 faiz), Qazax-Tovuz (7,5 faiz) və Mərkəzi Aran (6,9 faiz) iqtisadi rayonlarında qeydiyyata alınıb.

Daha bir vacib nüans odur ki, sahibkarlıqıa məşğul olanlar sırasında qadınların da xüsusi çəkisi sürətlə artır. Belə ki, fərdi sahibkarların 78,6 faizini kişilər, 21,4 faizini isə qadınlar təşkil edib. Qadınlar "Digər sahələrdə xidmətlərin göstərilməsi" fəaliyyət növündə mövcud sahibkarların ümumi sayının 31,5 faizini, "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" fəaliyyət sahəsində 24 faizini, "Ticarət; nəqliyyat vasitələrinin təmiri" fəaliyyət sahəsində isə 20,9 faizini təşkil edir. Sahibkar qadınların 30,5 faizi Bakıda, 10,1 faizi Lənkəran-Astara, 8,8 faizi Qazax-Tovuz, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçib. Fərdi sahibkarların cins tərkibinin regionlar üzrə say bölgüsündən aydın olur ki, Gəncə-Daşkəsən və Qazax-Tovuz (hər biri 25 faiz), Bakı (23,4 faiz), Naxçıvan Muxtar Respublikası (23,2 faiz) və Lənkəran-Astara (21,8 faiz) iqtisadi rayonlarında qadın sahibkarların payı ölkə üzrə orta göstəricidən yuxarıdır. Yuxarıda qeyd edildiyi kimi, ölkə regionlarında da sahibkarların sayı sürətlə artır və bu, bölgələrin tərəqqisində müsbət rol oynayır.



### Sosial-iqtisadi sabitliyə sahibkarlar mühüm töhfələr verir

Dünya təcrübəsi göstərir ki, iqtisadi inkişaf, özəl sektorun dinamik tərəqqisi sabitlik üçün də zəruri önəm kəsb edir. Hər bir dövlətin siyasi sabitliyində və həyat keyfiyyətinin yaxşılaşdırılmasında sahibkarların rolu yüksəkdir. Məhz sahibkarlar sabitlikdə maraqlı olan sosial təbəqənin formalaşdırılması prosesində mühüm missiyalar yerinə yetirir.

Sahibkarlığın kütləvi forma alması ilk növbədə işsizlik kimi sosial problemlərin həll edilməsində böyük önəm kəsb edir. Xeyli sayda insanın aktiv iqtisadi fəaliyyəti nəticədə işsizlik səviyyəsində azalma, rəqabət qabiliyyətinin genişləndirilməsi, inhisarlaşmanın zəifləməsi ilə müşayiət edilir. Bu da sosial gərginliyin aradan qaldırılmasına müsbət istiqamətdə öz təsirini göstərir. Təbii ki, bütün bunlar öz növbəsində cəmiyyətdə sabitlik üçün vacib faktorlar sırasında yer alır. Qeyd edilən fonda ölkəmizdə müasir sahibkarlıq bir sıra fundamental prinsiplərə əsaslanır, onlar sahibkarlıq fəaliyyətinin bütün aspektlərini əhatə edir. Bu prinsiplərdən ilki kimi sahibkarlıq sahəsində fəaliyyət növlərinin sərbəst seçimini qeyd etmək olar. Ölkədə bizneslə məşğul olmaq üçün fiziki və hüquqi şəxslərin vəsaitlər və əmlakla təmini də əsas prinsiplər sırasında yer alır.

Təchizatçıların müstəqil seçimi, istehsal olunan və satılan məhsulların müstəqil qiymətinin təyini, maddi-texniki, maliyyə mənbələrinin sərbəst istifadəsi, təbii və digər sərvətlərdən istifadə imkanları, azad xarici iqtisadi fəaliyyət üçün yaradılan şərait də sahibkarlığın inkişafını sürətləndirən başlıca prinsiplər sırasında yer alır. Bütün bunlar Azərbaycanın sosial-iqtisadi inkişafının daha da sürətlənməsində zəruri rol oynayır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**